# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

**"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
Sənəd dövriyyəsi şöbəsi

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, "15" dekabr 2025-ci il

№ 549

**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi (bundan sonra – "Tərəflər"),

statistika sahəsində əməkdaşlığın təşviqi və inkişaf etdirilməsi, statistik məlumatların mübadiləsinin genişləndirilməsi və iki ölkənin statistika qurumları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məqsədilə,

aşağıdakılar barədə anlaşmaya gəldilər:

**Maddə 1**

Tərəflər səlahiyyətləri çərçivəsində və öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq statistika sahəsində aşağıdakı istiqamətlərdə əməkdaşlıq etmək niyyətindədirlər:

- texniki əməkdaşlıq üzrə beynəlxalq proqramlarda iştirakla bağlı birgə səylərin dəstəklənməsi;
- beynəlxalq statistik standartların, təsnifatların və metodların həyata keçirilməsi və tətbiqi sahəsində təcrübə və informasiya mübadiləsi;
- elmi və metodoloji tədqiqatlarda əməkdaşlıq və qarşılıqlı maraq doğuran layihələrin icrası.

Tərəflər həmçinin qarşılıqlı razılıq əsasında digər istiqamətlər üzrə əməkdaşlıq edə bilərlər.

**Maddə 2**

Tərəflər aşağıdakı vasitələrlə statistika sahəsində əməkdaşlığı dəstəkləyirlər:

- statistik nəşrlərin, metodoloji və digər müvafiq materialların mübadiləsi;
- digər Tərəfin qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə telekonfransların və mütəxəssislər üçün təlim səfərlərinin təşkili;
- informasiya texnologiyalarının istifadə edilməsi və yeni informasiya texnologiyalarının tətbiqi üzrə təcrübə mübadiləsi;
- beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət.

**Maddə 3**

Tərəflər bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq sahələrini beşillik iş planları vasitəsilə müəyyən edirlər. İş planlarında məqsədli tədbirlər, texniki öhdəliklər, cədvəllər və qarşılıqlı əsasda razılaşdırılmış digər məsələlər göstərilir. İş planları Tərəflər tərəfindən təsdiq edilir.

**Maddə 4**

Hər bir Tərəf bu Anlaşma Memorandumunun icrası məqsədilə kommunikasiyanın və əlaqələndirmənin həyata keçirilməsi üçün əlaqələndirici şəxs təyin edir.

**Maddə 5**

Tərəflərdən birinin bu Anlaşma Memorandumu çərçivəsində əldə etdiyi informasiya bu informasiyanı təqdim edən Tərəfin yazılı razılığı olmadan üçüncü tərəflərə verilə bilməz.

**Maddə 6**

Bu Anlaşma Memorandumuna uyğun olaraq Tərəflər digər Tərəfin hər hansı patent, müəlliflik hüququ, əmtəə nişanları, firma adları və ya xidmət nişanlarından istifadə edə bilməzlər. Digər Tərəfin əqli mülkiyyət hüquqlarından istifadə etmək və ya əqli mülkiyyətin birgə istifadəsi ilə nəticələnən fəaliyyətlər ilə məşğul olmaq üçün Tərəflər arasında ayrıca yazılı razılaşma əldə olunmalıdır.

**Maddə 7**

Tədbirlərin və kommunikasiyanın işçi dili rus dilidir. Bu Anlaşma Memorandumu ilə bağlı bütün yazışmalar, eləcə də bütün hesabatlar rus dilində tərtib edilir.

**Maddə 8**

Bu Anlaşma Memorandumunun müddəalarının təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunur.

**Maddə 9**

Bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı yazılı razılığı ilə edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan və bu Anlaşma Memorandumunun 10-cu maddəsində uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilir.

**Maddə 10**

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişin Tərəflərin diplomatik kanallar vasitəsilə aldığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən heç biri

onu ləğv etmək niyyəti barədə ən azı 6 (altı) ay əvvəl diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə məlumat vermədikdə, avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumunun qüvvəyə mindiyi tarixdən etibarən 2000-ci il 7 aprel tarixli "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikası Statistika Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş" qüvvədən düşür.

Bu Anlaşma Memorandumu Astana şəhərində 2025-ci il 21 oktyabr tarixində, hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

Bu Memorandumun müddəalarının təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından** | **Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi adından** |